**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Təhməzov Yavər Xəlil oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 267 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Moranlı bələdiyyəsi üzvlüyünə namizəd Təhməzov Yavər Xəlil oğlu və digərləri 2009-cu il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, Moranlı bələdiyyəsi üzrə 10, 11 və 12 saylı seçki məntəqələrində səslər hesablanarkən məntəqə seçki komissiyaları tərəfindən saxtakarlığa yol verildiyini bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən yerində araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Belə ki, 64 saylı Sabirabad ikinci seçki dairəsi dairə seçki komissiyasının sədri Ş.İmanovun və komissiya üzvlərinin, 64 saylı Sabirabad ikinci seçki dairəsinin 10, 11 və 12 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər V.İ.Əzimov, D.F.Ağayev, E.M.Heydərov, müşahidəçilər Quliyev Yusif Ağalar oğlu, Atakişiyev Xəyyam Rəsul oğlu, Mikayılov Aqil Balamirzə oğlu, Həsənova Məleykə Hafis qızı, E.A.Mansurov, F.A.Mehdiyev, E.S.İmanov, B.D.Əliyev, R.S.Rəsulov, Ə.R.Rzayev və məşvərətçi səs hüquqlu üzv Nadirov Əlifağa Mirzəağa oğlunun verdikləri izahatlardan Moranlı bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 64 saylı Sabirabad ikinci seçki dairəsi dairə seçki komissiyasının sədri Ş.İmanovun və komissiya üzvlərinin izahatlarında müraciət edən şəxslərin adlarından Moranlı bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Təhməzov Yavər Xəlil oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 267 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |